# Vergilər Nazirliyinin Tədris Mərkəzi

## 2014-cü il ərzində görülmüş işlər barədə

# H E S A B A T



2014

Cari il ərzində vergi orqanları əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, fasiləsiz, sistemli, səmərəli və beynəlxalq təcrübəyə əsaslanan keyfiyyətli təhsilin təmin edilməsi məqsədilə aşağıdakı işlər yerinə yetirilmişdir:

### *1. Tədris prosesinin normativ bazasının təkmilləşdirilməsi sahəsində*



- "Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Tədris Konsepsiyası"nın və "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları" yeni redaktədə vergilər nazirinin 24 iyun 2014-cü il tarixli 1417040100758700 nömrəli əmri təsdiq edilmişdir;

- "Azərbaycan Respublikası Vergilər Nazirliyində keçirilən təlimlərin qiymətləndirilməsinə dair Metodiki Tövsiyələr"in layihəsi hazırlanmış və vergilər nazirinin 19 sentyabr 2014-cü il tarixli 1417040101282800 nömrəli əmri ilə təsdiq edilmişdir. Bu tövsiyələrə uyğun olaraq cari ildə 353 dinləyici təlimlərin qiymətləndirilməsində iştirak etmiş, nəticələr ümumiləşdirilmiş və təlimlərin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsində istifadə edilmişdir. Eyni zamanda, AVİS-in "Tədris" altmodulunda sorğuların aparılması və nəticələrin ümumiləşdirilməsi üçün müvafiq imkanların yaradılması üzrə hazırlıq işləri tamamlanmışdır;

- Vergilər Nazirliyinin Tədris Mərkəzinin strukturuna müvafiq olaraq yeni vəzifə təlimatları hazırlanmış və vergilər nazirinin 4 iyun 2014-cü il tarixli 1417040100702000 nömrəli əmri ilə təsdiq edilmişdir;

- "Metodiki kabinetlərin və vergi tədris otaqlarının maddi-texniki təminatının və tədris-metodiki vəsaitlərə olan ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə

monitorinqin keçirilməsi Qaydaları” Vergilər Nazirliyinin 8 aprel 2014-cü il tarixli 1417040100439900 nömrəli əmri ilə təsdiq edilmişdir;

- Təlim proseslərinə dair müasir tələblərə müvafiq olaraq, Tədris Mərkəzinin struktur vahidlərinin Əsasnamələrinin yeni layihələri hazırlanmış, Vergilər Nazirliyinin aidiyyəti struktur vahidlərinin irad və təklifləri nəzərə alınmaqla təkmilləşdirilmiş və təsdiq edilməsi üçün Nazirliyə təqdim edilmişdir.

### *2. Təlim proseslərinin vergi orqanlarının təlim tələbatlarına uyğunlaşdırılması sahəsində*



Vergilər Nazirliyi çərçivəsində həyata keçirilən təlim prosesinin vergi orqanlarının əməkdaşlarının praktiki tələbatlarına uyğunlaşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Tədris-metodiki Şuranın tövsiyələri və Nazirliyin struktur vahidlərinin təkliləri nəzərə alınmaqla illik tədris qrafiki tərtib edilmiş, ilkin hazırlıq və ixtisasartırma kurslarının yeni tədris-mövzu planları, o cümlədən qısamüddətli təlimlərin mövzuları və keçirilmə müddətləri müəyyən edilmiş, Azərbaycan Respublikası vergilər nazirinin 10 fevral 2014-cü il tarixli 1417040100116300 nömrəli əmri ilə təsdiq edilmişdir.




“Vergilər Nazirliyinin Telefon Məlumat Xidməti müfəttiş-operatorlarının illik bilik və peşə hazırlığı səviyyəsinin qiymətləndirilməsi Qaydaları”na və “Vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları”na uyğun olaraq 25 yanvar 2014-cü il tarixdə

Çağrı Mərkəzinin əməkdaşlarının və vergi ödəyicilərinə xidmət mərkəzlərinin təmsilçilərinin bilik və peşə hazırlığı səviyyəsinin qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmənin nəticələri nəzərə alınmaqla treninq proqramları hazırlanmış və təqvim ilinin birinci yarımilliyi ərzində Tədris Mərkəzi tərəfindən **əyani** və **distant** təhsilalma formasında kurslar təşkil edilmişdir. Distant təhsilalma forması ilə təşkil edilmiş kursa vergi ödəyicilərinə xidmət mərkəzlərinin **175 əməkdaşı** cəlb olunmuşdur.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə müvafiq olaraq, Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin inzibati binasında Departamentin yeni işə qəbul edilmiş və yoxlama aparılması həvalə olunmuş əməkdaşları üçün yoxlama proseduraları və aidiyyəti hüquqi aktların tələbləri ilə bağlı təlimlər təşkil edilmişdir. Bu təlimlərdə Departamentin **214 əməkdaşı** iştirak etmişdir.

Tədrisin səmərəliliyinin yüksəldilməsinin təmin olunması üçün fənlərin tədris proqramları vergi orqanlarının tələbatları əsasında yenidən tərtib edilmişdir.

İxtisasartırma və ilkin hazırlıq kurslarında tədris olunan mövzuların təlim materialları praktiki yönümlü məsələlərə daha çox yer verilməklə təkmillləşdirilmişdir.




İxtisasartırma və ilkin hazırlıq kurslarının tədris-mövzu planlarında praktiki mövzulara daha çox yer verilməsi müvafiq test bazasının da təkmillədirilməsi zərurətini yaratmışdır. Test bazası praktiki yönümlülüyün təmin edilməsi məqsədilə təkmilləşdirilmiş, testlərin keyfiyyətinin daha da yüksəldilməsi üçün Vergilər Nazirliyinin müvafiq funksional istiqamətləri üzrə mütəxəssislərinin iştirakı ilə inventarizasiya aparılmışdır.

### *3. Tədrisin təşkili sahəsində*

Cari ildə 8 ilki hazırlıq və 14 ixtisasartırma kursu, 44 qısamüddətli təlim təşkil edilmişdir.

| s/s | Təlimin növü | İllik tədris qrafiki üzrə | Faktiki sayı |
|---|---|---|---|
| 1. | İlkin hazırlıq | 4 | **8** |
| 2. | İxtisasartırma | 15 | **14** |
| 3. | Qısamüddətli təlimlər | 27 | **44** |

Cari ildə ilkin hazırlıq kurslarına 215, ixtisasartırma kurslarına 387, qısamüddətli təlimlərə isə 991 əməkdaş cəlb olunmuşdur. Beləliklə, 2014-cü ildə 1593 nəfər vergi əməkdaşı təlim prosesinə cəlb olunmuşdur. Bu o deməkdir ki, cari ildə vergi orqanı əməkdaşlarının 63%-i təlim prosesləri ilə əhatə olunmuşdur.




Müqayisə üçün qeyd edək ki, təlim prosesinə cəlb edilmiş əməkdaşların sayı ötən il **1204**, 2012-ci ildə **707** nəfər olmuşdur.

Məlum olduğu kimi, vergi orqanı əməkdaşları üçün tədrisin ***kifayətlilik*** göstəricisi kimi bir təqvim ili ərzində bir orta statistik vergi işçisinə düşən tədris günlərinin sayı əsas götürülür. Cari ildə Tədris Mərkəzi tərəfindən təşkil edilən təlimlər üzrə ***kifayətlilik*** göstəricisi **7,2** adam-gün olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2011-ci il ərzində həmin göstəricinin illik qiyməti 3,2, 2012-ci ildə 3,7,

2013-cü ildə isə 4,7 təşkil etmişdir. Bu göstəricidə distant təhsilalma formasında təşkil edilmiş kursların payı **3,6** adam-gün olmuşdur.




2014-cü ildə keçirilən kursların tədris-mövzu planlarında praktiki xarakterli mövzulara daha geniş yer verildiyi üçün həmin mövzuların tədrisinə praktiki biliklərə və texniki vərdişlərə malik olan təlimçilər cəlb edilmişdir. Cari ildə həyata keçirilən tədris yükünün bölgüsü aşağıdakı diaqramda göstərilmişdir.




Növbəti tədris ilində tədris prosesinə Vergilər Nazirliyinin mərkəzi aparatının əməkdaşları ilə yanaşı, yerli vergi oranlarından bilavasitə praktika ilə məşğul olan peşəkar əməkdaşların cəlb olunması nəzərdə tutulur.

Tədris kurslarının səmərəliliyinin təmin olunması nöqteyi-nəzərindən dinləyicilərin zəif cəhətlərinin və daha çox diqqət yetirilməli olan məsələlərin dəqiqləşdirilməsi üçün dinləyicilərin peşə hazırlığının və bilik səviyyəsinin ilkin qiymətləndirilməsi və tədris kursunun sonunda müvafiq tövsiyənin verilməsi üçün son qiymətləndirmə aparılır.




Qiymətləndirmələrin nəticələrinin müqayisəsi göstərir ki, ilkin və yekun qiymətlər arasında ümüumi fərq orta hesabla +23 bənd olmuşdur.

Tədrisin təşkili sahəsində aşağıdakı digər tədbirlər də həyata keşirilmişdir:

- Vergi orqanları əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılması məqsədilə tədris prosesində beynəlxalq təcrübəyə əsaslanan konkret halların təhlili *(Case study)*, açıq fəza *(Open space),* beyin hücumu, beynəlxalq kafe *(World café),* modullarla öyrənmə, kiçik qruplarda *(komandada)* iş və başqa təlim üsulları tətbiq edilir. Təlim proseslərində «bazar yeri» *(market place*), «müsahibə» (*interview*), «sürətli məlumat» (s*peed dating*), «video təqdimat» (*video presentation*) kimi yeni təlim metodlarının istifadəsi istiqamətində işlər aparılmışdır.

- İlkin hazırlıq kursu üçün təsdiq olunmuş tədris-mövzu planına uyğun olan təlim materiallarını özündə əks etdirən "Vergiyə giriş" adlı kitab yenidən işlənmişdir.

- Çağrı Mərkəzinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin əməkdaşları üçün illik treninq proqramı əsasında yeni test bazası hazırlanmışdır;

-Vergilər Nazirliyi sistemində attestasiyanın keçirilməsi ilə əlaqədar hər bir fəaliyyət istiqaməti üzrə test bazaları hazırlanmışdır. Tədris Mərkəzinin əməkdaşları Vergilər Nazirliyində attestasiyanın keçirilməsi ilə bağlı Nazirliyə

ezam olunmuş, proqram təminatı ilə bağlı texniki məsələlərin həllində iştirak etmişlər;

- Vergilər Nazirliyinin internet səhifəsinin "Faydalı" bölməsində "Vergi testi" alt bölməsindəki mövcud sual bazasının yenilənməsi üçün ümumi sayı 1000 sualdan ibarət olan yeni testlər hazırlanmışdır;

- Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş və respublikanın ali təhsil müəssisələrinin tələbə və magistrləri arasında keçirilən olimpiadanın test bazası Tədris Mərkəzində hazırlanmışdır. Mərkəzin əməkdaşları olimpiadanın təşkil edilməsində və keçirilməsində bilavasitə iştirak etmişlər;




- Tədris Mərkəzində keçirilən imtahanların AVİS-ə tam inteqrasiya edilməsi tapşırığının icrası ilə bağlı zəruri tədbirlər həyata keçirilmişdir (Texniki tapşırıq hazırlanmış, Texniki Qrupun və Maliyyə-təsərrüfat idarəsinin müsbət rəyləri alınmış, işin kalkulyasiyası müəyyən edilmişdir).

- Tədris prosesinin səmərəliliyinin yüksəldilməsi məqsədilə AVİS-də «Tədris» altsisteminin aşağıdakı modulları hazırlanaraq istifadəyə verilmişdir:

- Dinləyicilərin müəyyən edilməsi;
- Tədris mövzularının daxil edilməsi;
- Tədris-mövzu planı, tədris planı və dərs cədvəlinin tərtib edilməsi;
- Dərs jurnalı;
- İlkin və yekun qiymətləndirmənin nəticələrinin daxil edilməsi.

- Vergilər Nazirliyi əməkdaşlarının peşə hazırlığı prosesində elektron təhsilin *(e-learning)* tətbiq edilməsi üçün təlim materiallarının elektron bazasının yaradılması istiqamətində işlər həyata keçirilir;

- Təlim tələbatlarının öyrənilməsi mexanizminin hazırlanması ilə bağlı olaraq AVİS-in "Tədris" modulunda "Anket" altmodulunun yaradılamsı üçün zəruri tədbirlərin hamısı icra edilmişdir. Bu modulun 2015-ci ildən istifadəyə verilməsi planlaşdırılır;

- Mərkəzin əməkdaşları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının nəzdində fəaliyyət göstərən Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kurslarında aidiyyəti mövzuların tədrisinə cəlb olunmuşlar;

- Tədris Mərkəzinin əməkdaşları Azərbaycanın müxtəlif bölgələrində yerləşən 54 təhsil müəssisəsində təşkil olunmuş metodiki kabinetlərin və vergi tədris otaqlarının maddi-texniki təminatının və tədris metodiki vasitələrə olan ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə keçirilən monitorinqlərdə iştirak etmiş, monitorinqlərin nəticələri barədə hesabat xarakterli arayış hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

### *4. Elmi-tədqiqat sahəsində*




2014-cü ildə təsdiq olunmuş illik plana uyğun olaraq elmi-tədqiqat sahəsində aşağıdakı işlər görülmüşdür:

"Kiçik və orta sahibkarlığın inkişafında vergi siyasətinin rolu" mövzusunda elmi-tədqiqat işi yerinə yetirilmiş, mövzunun nəzərı və praktiki aspektləri, vergi siyasətinin kiçik və orta biznesin inkişafına təsiri mexanizmləri təhlil edilmiş və bu sahədə beynəlxalq təcrübə öyrənilmişdir. Eyni zamanda, kiçik və orta sahibkarlığın identifikasiya meyarlarının müəyyənləşdirilməsində mövcud vəziyyət təhlil edilmiş və vergi məqsədləri üçün onun təkmilləşdirilməsi, eləcə də, vergi məqsədləri üçün orta və mikrofirmaların identifikasiyası ilə bağlı təkliflər

verilmiş, kiçik sahibkarlığın inkişafına istiqamətlənmiş vergi siyasəti sahəsində beynəlxalq təcrübə öyrənilmiş və müxtəlif ölkələr üzrə ümumiləşmələr aparılmışdır.

“Beynəlxalq vergi-maliyyə terminləri” üzrə ingilis və rus dilində hazırlanmış izahlı lüğətin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir.

### *5. Beynəlxalq təcrübənin öyrənilməsi sahəsində*

Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadiyyat və Maliyyə Nazirliyinin Beynəlxalq Texniki İnkişaf Agentliyi (ADETEF) tərəfindən “İnkişaf üçün əməkdaşlıq: iqtisadiyyat və maliyyə sahələrində keyfiyyətli idarəçiliyin təmin olunması üçün dövlət qurumlarında çalışan menecerlərin treninqi” mövzusunda keçirilən konfransda Tədris Mərkəzinin əməkdaşı iştirak etmişdir.




İOTA-ya (Avropadaxili Vergi Adminstrasiyaları Təşkilatı) daxil olan ölkələrin vergi orqanları üçün nəzərdə tutulan tədris sahəsində təcrübələrinin öyrənilməsi istiqamətində iş aparılır, mövcud potensialdan daha səmərəli istifadə olunması ilə bağlı işlər görülür. Hazırda istifadə edilən “Azərbaycan Respublikası Vergilər Nazirliyində keçirilən təlimlərin qiymətləndirilməsinə dair Metodiki Tövsiyələr” İtaliya təcrübəsindən yararlanmaqla hazırlanmışdır. Tədris

proseslərində beynəlxalq təcrübədən məlum olan “açıq fəza” *(open space),* “dünya kafesi” (*World kafe*), “sürətli məlumat” *(speed dating)*”, «bazar yeri» (m*arket place*), «müsahibə» (i*nterview*), «sürətli məlumat» (s*peed dating*), «video təqdimat» (v*ideo presentation*) kimi təlim metodlarının tədris prosesində istifadə edilməsi, elektron, sosial və mobil təhsil üsullarından istifadənin genişləndirilməsi, bu üsulların tətbiqi ilə bağlı mütəmadi iş aparılır.

İlkin hazırlıq və ixtisasartırma kursları üzrə keçirilən imtahan prosesinin AVİS-ə inteqrasiya edilməsi üçün Tədris Mərkəzinin əməkdaşları da daxil olmaqla bir qrup əməkdaş Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə ezam olunmuş, bu prosesin texniki və təhlükəsizlik məsələləri üzrə biliklkər əldə edilmişdir.

Cari ildə Çin Xalq Respublikasının vergi sisteminin öyrənilməsi proqramı çərçivəsində bu ölkədə vergi orqanı əməkdaşları üçün təşkil edilən tədris prosesi öyrənilmiş, dinləyicilərin seçilməsi, istedadların üzə çıxarılması və ixtisasartırma kurslarının təşkili ilə bağlı bir sıra təkliflər verilmişdir. Hazırda həmin təcrübənin praktiki tətbiqi imkanları araşdırılır.

## *6. Maliyyə-təsərrüfat sahəsində*

Tədris Mərkəzinin 2014-cü il üzrə dövlət büdcəsində saxlanılması xərclərinin smetası tərtib edilmiş və həmin layihənin Azərbaycan Respublikası Maliyyə Nazirliyinə göndərilməsi üçün Vergilər Nazirliyinə təqdim edilməsi və müdafiəsi təmin edilmişdir.

Mərkəzin ştat cədvəllərinin tərtib olunmasına dair təkliflərin hazırlanması və saxlanılmasına dair xərc smetasının ştat cədvəlinə müvafiq təsdiq olunması təmin edilmiş, aylıq əmək haqqı ştat cədvəlinə, əlavə ödənişlərin isə xərc smetasına uyğun olaraq istifadə edilməsi işləri təşkil olunmuşdur. Mərkəzin saxlanmasının smeta xərclərinin icrasına və büdcədənkənar fondun vəsaitlərindən istifadə edilməsinə dair hesabatların, habelə statistik hesabatların tərtib edilməsi, Vergilər

Nazirliyinə və aidiyyəti üzrə digər orqanlara təqdim olunması işləri vaxtlı-vaxtında icra olunmuşdur.

Mərkəzin təsərrüfat və təchizat işlərinin təmin edilməsi üçün müvafiq idarə, müəssisə və təşkilatlarla müqavilələrin bağlanması işlərinin təşkil edilməsi, həmçinin bu müqavilələr üzrə şərtlərin, öhdəliklərin icraçı təşkilatlar tərəfindən yerinə yetirilməsinə nəzarətin təmin olunması, yerinə yetirilmiş işlərin və göstərilmiş xidmətlərin qəbul edilməsi istiqmətində işlər görülmüşdür.

2010-cu ilin arxiv sənədlərinin nomenklatura uyğun formalaşdırılaraq cild şəklində tərtib edilməsi tam başa çatdırılmışdır.

Mərkəzin inzibati binasının və digər tikintilərin mühafizəsinə və təmirinə, yanğın təhlükəsizliyi texnikasının tələblərinə uyğun olaraq müvafiq qaydalara, inzibati binanın və digər tikililərin təmizliyinə, elektrik enerjisindən və içməli sudan qənaət rejiminə ciddi riayət olunmasına nəzarət və əməl edilmişdir.

* * *